**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SOSİAL İNVESTİSİYALAR MEXANİZMİNİN FORMALAŞMASI

İxtisas: 5307.01 - İqtisadi nəzəriyyə

Elm sahəsi: 53 – İqtisad elmləri

**İddiaçı: Aysel Əlican qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2021**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “İqtisadi nəzəriyyə” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

**Rəsmi opponentlər**: iqtisad üzrə elmlər doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Mənsur İsa oğlu Bərxudarov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Habil Hüseyn oğlu Aslanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad üzrə elmlər doktoru, professor
_______________ / **Ədalət Cəlal oğlu Muradov**
imza

**Dissertasiya şurasının elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru, dosent
_______________ **Zöhrab Həsən oğlu İbrahimov**
imza

**Elmi seminarın sədri:** iqtisad üzrə elmlər doktoru, professor
_______________ **Qabil Nadir oğlu Manafov**
imza

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. Tədqiqatın aktuallığı müasir cəmiyyətdə həyatın ümumi sosial aspektlərinin və bütövlükdə, insanın yaşadığı sosial mühitin rolunun artması ilə bağlıdır.

Dünya iqtisadiyyatında gedən proseslərin təhlili göstərir ki, iqtisadi artımın sabitliyi və xüsusən bu prosesin sürətlənməsi hər şeydən əvvəl, innovasiyalı inkişaf yolu ilə təmin edilə bilər. Nəzərə almaq lazımdır ki, burada sadəcə inkişafdan yox, həm bilavasitə iqtisadiyyatda, həm də müasir cəmiyyətin həyatının bütün sahələrində innovasiyalı modernləşdirmədən söhbət gedir. Həmin prosesin ayrılmaz tərkib hissəsi kimi bütün sosial mühitin modernləşdirilməsi nəzərdə tutulur. Buraya əhalinin əksəriyyətinin konkret maddi imkanlarından asılı olmayaraq onların həyat səviyyəsinin və yaşayış keyfiyyətinin yüksəldilməsi, onlara səhiyyə, elm, təhsil və başqa sahələrdə sosial inkişafın ən qabaqcıl nailiyyətlərindən yararlanmaq imkanı verilməsi daxildir. Belə nailiyyətlərin obyektiv olaraq çətinləşməsi və bahalanması ümumi daxili məhsulun (ÜDM) strukturunda maddi məsrəflərin əhəmiyyətli dərəcədə artmasını tələb edir, bu da öz növbəsində, sosial investisiyanın həcminin artırılmasını, onun strukturunun təkmilləşdirilməsini və keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur.

Bu baxımdan, sosial investisiya dedikdə, sosial sfera sahələrinə qoyulan investisiyaların sadəcə cəmi deyil, daha geniş mənada insanın inkişafına sərf edilən bütün vəsaitlərin məcmusu nəzərdə tutulur. Beləliklə, bu halda həm məhz sosial sfera çərçivəsində, həm də onunla "yanaşı" olan bir sıra digər sahələrdə investisiya fəaliyyəti haqqında söhbət gedir.

Digər zəruri amillər və hallarla bərabər, məhz müasir cəmiyyətin həyatının bu çoxtərəfli sahəsinə investisiya qoyuluşları, bu cəmiyyətin inkişaf səviyyəsini müəyyən edir və eyni zamanda gələcəkdə həmin səviyyənin yüksəldilməsinin təməlini qoyur. Buna görə də sosial investisiyanın obyektləri olan sahələr, bu sahələrin inkişafı ilə əlaqədar olan proqram və layihələr həm xarici, həm də daxili xarakterli hər hansı konyunktur amillərindən asılı olmamalıdır (və ya minimal dərəcədə asılı olmalıdır), yəni milli iqtisadiyyat çərçivəsində bir növ "qorunmuş status"a malik olmalıdır. Bütövlükdə sosial investisiya prosesləri kimi

genişmiqyaslı fəaliyyət sferasına milli dövlət tərəfindən təsir göstərilməsi iqtisadi sistemin müvafiq elementlərinin effektivliyi və keyfiyyəti ilə bağlı yüksək tələblər irəli sürür, xüsusi halda, effektiv mexanizmin mövcud olmasını tələb edir. Belə mexanizm, investisiya fəaliyyətini stimullaşdırma metodları və vasitələri sisteminin mövcud olmasını və bütövlükdə milli iqtisadiyyat çərçivəsində potensial investorlar üçün əlverişli mühitin formalaşmasını nəzərdə tutur.

**Problemin öyrənilmə səviyyəsi.** Sosial sfera problemlərinə həsr edilmiş tədqiqatlar İkinci Dünya müharibəsindən sonra geniş miqyasda inkişaf etməyə başlamışdır. Bu, elmdə və praktikada cəmiyyətin inkişafına dair yeni konsepsiya və nəzəriyyələrə üstünlük verilməsi ilə, inkişaf prosesində fərdin roluna diqqətin artması ilə bağlı idi."Sosial investisiyalar" terminindən ilk dəfə 1960-cı ildə "insan kapitalı nəzəriyyəsinin" banisi, amerika iqtisadçısı, Nobel mükafatı laureatı T.Şuls o vaxt geniş vüsət almış elmi-texniki inqilab şəraitində insan amilinin yeni keyfiyyətinə onların təsirinin tədqiqatı kontekstində istifadə etmişdir. O göstərirdi ki, *"əhalinin keyfiyyət səviyyəsi ilk növbədə səhiyyəyə və təhsilə kapital qoyuluşları sayəsində yüksəlir"*.[1] Beləliklə, insan kapitalına investisiyalar anlayışına daha geniş miqyasda baxdıqda cəmiyyətin səhiyyəyə, təhsilə çəkdiyi xərcləri yalnız istehlak xərcləri hesab etmək kifayət deyil. Bu xərclər insan kapitalına investisiyalar kimi qiymətləndirilməlidir. İqtisadiyyat üzrə daha bir Nobel mükafatı laureatı Q.Bekker sonralar bu mövzunun tədqiqatını davam etdirmişdir. Bekkerin fikrincə, *"insan kapitalı" nəzəriyyəsi əmək məhsuldarlığı ilə təhsilə, bilik və bacarıqlar əldə edilməsinə investisiyalar arasında əlaqələri açıqlayır"*.[2] Neoklassik istiqamətin başqa nümayəndələri ilə yanaşı bu iki görkəmli mütəxəssis də Çikaqo universitetinin nüfuzlu nəşri olan "Siyasi iqtisad jurnalı"nda insan kapitalına investisiyalarla bağlı məqalələrlə çıxış etmişlər. 1962-ci ilin oktyabr ayında həmin jurnalın xüsusi buraxılışı bütünlüklə insana və ya "insan kapitalına" investisiyalar ("sosial investisiyalar") probleminə həsr

---

[1] Теодор У.Шульц. Экономика пребывания в бедности // Мировой экономическая мысль. Сквозь призму веков": В 5 т. / Сопред. редкол. Г.Г.Фетисов, А.Г.Худокормов. Т.V. В 2 кн. Всемирное признание: Лекции нобелевских лауреатов / Отв.ред.Г.Г.Фетисов. Кн 1. - М.:Мысль, 2004,С.362.

[2] Гери С.Беккер. Экономический взгляд на жизнь // Мировой экономическая мысль. Сквозь призму веков: В 5 т. / Сопред.редкол. Г.Г.Фетисов, А.Г.Худокормов. Т.V. В 2 кн. Всемирное признание: Лекции нобелевских лауреатов / Отв.ред. Г.Г.Фетисов. Кн 1.- М.:Мысль, 2004,С.689.

edilmişdir.[3]

Lakin iqtisad elminin bir sıra görkəmli nümayəndələri investisiya qoyuluşunun bu növünün əhəmiyyəti məsələsini yuxarıda qeyd edilən dövrdən hələ xeyli əvvəl bu və ya digər şəkildə tədqiq etmişdilər. Məsələn, klassik siyasi iqtisadın banilərindən biri olan Adam Smit vurğulayırdı ki, işçilərin ixtisas səviyyəsi və qabiliyyətləri kimi keyfiyyətləri xalqların sərvətinin əsas mənbələrindən biri hesab edilməlidir. Bu səbəbdən, belə işçilərin təhsil səviyyəsinin yüksəldilməsi və bu işlərə sərmayə qoyulması obyektiv zərurət idi.

Sonralar, XIX əsrin sonu - XX əsrin başlanğıcında neoklassik istiqamətin Kembric siyasi iqtisad məktəbinin nümayəndələri rifah və ümumi həyat səviyyəsi məsələlərini hərtərəfli tədqiq etdilər. Bu halda ilk növbədə Britaniya iqtisadçıları - Kembric məktəbinin banisi A.Marşall, eləcə də onun ən yaxın davamçısı və şagirdi A.Piqu nəzərdə tutulur.

Kecmiş Sovetlər birliyində  milli gəlirin artım sürətinə təhsilin verdiyi töhfə problemi hələ İkinci Dünya müharibəsindən əvvəlki dövrdə akademik S.Q.Strumilin tərəfindən tədqiq edilmişdir. Bununla əlaqədar, mütəxəssislər iqtisadi tərəqqinin təminatında insan amilinin rolunun tədqiq olunması barədə akademik Strumilinin irəli sürdüyü təşəbbüsü orijinal elmi istiqamət hesab edirlər.

Sonrakı dövrdə tədqiqatçılar həm tarixi, həm də məntiqi baxımdan əsas diqqəti sosial sahənin inkişafının ümumi problemlərinin öyrənilməsi kontekstində bu sferaya investisiya məsələləri üzərində cəmləşdirirlər.

Sosial sferaranın müxtəlif sahələrinə investisiya qoyuluşları məsələsinin tədqiqi  həmin sferanın tərkib hissələrinin (buraya elm, elmi-tədqiqat fəaliyyəti və təhsil, səhiyyə və mədəniyyət sahələri ilə yanaşı, məsələn, əyləncə xidmətləri sahəsi, həmçinin turizm və mehmanxana biznesi kimi "qonaqpərvərlik sferası"  və s. də  aid edilir) təsnifləşdirilməsinə uyğun olaraq aparılır.

Məsələn, XX əsrin ortalarında amerikalı  iqtisadçı və sosioloqlar C.Helbreyt və D.Bell öz araşdırmalarında postsənaye cəmiyyətinin ümumi konsepsiyasının tədqiqatı çərçivəsində  sosial sfera sahələrinin

---

[3] Theodore W. Schultz. Reflections on Investment in Man. // The Journal of Political Economy. Supplement. – October 1962. - Volume 70. – Number 5. – Part 2. – PP.1-8; Gary S. Becker. Investment in Human Capital: A Theoretical Analysis. – Op. cit. – PP. 9-49

inkişafı məsələlərini qaldırırdılar.Bunu xüsusilə vurğulamaq lazımdır ki, xidmət sferasına daxil olan turizm və mehmanxana sferası kimi sahələrin *"insanların istirahəti üçün şəraitin təmin edilməsi ilə bağlı sahələr"* adlandırılması D.Bellin adı ilə bağlıdır.[4]

Beləliklə, sosial inkişaf, o cümlədən sosial investisiya məsələləri yalnız sosial sferaya aid problemlərlə müqayisədə tədricən daha geniş anlayış kimi tədqiqat obyektinə çevrilməkdədir. Məsələn, C.Helbreyt "İqtisadi nəzəriyyələr və cəmiyyətin məqsədləri" adlı əsərində bu problemə daha geniş mövqedən - bütövlükdə iqtisadi inkişafın, o cümlədən elmi-texniki tərəqqinin ən əhəmiyyətli indikatoru və "ictimai (yəni sosial) nailiyyətlərin meyarı" kimi yanaşır. Müvafiq olaraq, Helbreytə görə, sosial tələbatlarla bağlı xərclər (başqa sözlə, sosial investisiyalar), *"dövlət vəsaitlərinin həm düzgün, həm də son dərəcə arzuolunan şəkildə tətbiqi"*[5] deməkdir.

"Biliklər cəmiyyəti" nəzəriyyəsinin tərəfdarı T.Sakayya əsas diqqəti məhz sosial sferanın müasir iqtisadiyyatda və cəmiyyətdə əhəmiyyəti məsələsi üzərində cəmləşdirir,[6] "Mərhələlər nəzəriyyəsi"nin banisi U.Rostou isə özünün "Siyasət və artım mərhələləri" (1971) adlı kitabında "həyatın keyfiyyəti axtarışı"nı ictimai prioritet kimi fərqləndirir.[7] Bu səbəbdən, insanın həyat keyfiyyətinin artımına və hərtərəfli ahəngdar inkişafına investisiya qoyuluşları böyük əhəmiyyət kəsb edir.

Digər amerika iqtisadçısı, cəmiyyətin inkişafı və bütövlükdə əhalinin rifahının yaxşılaşdırılması üçün "işçilərin asudə vaxtının dəyəri" anlayışının rolunu vurğulayan Ceyms Tobin iş vaxtının azaldılması və ya məzuniyyət vaxtının artırılması kimi məqamları, həmçinin belə hədəflərə nail olmaq üçün investisiyanın əhəmiyyətini xüsusi qeyd edirdi.[8]

Amerika iqtisadçıları, məşhur "Ekonomiks: prinsiplər, problemlər və siyasət" əsərinin müəllifləri K.R.Makkonnell və S.L.Bryu hesab

---

[4] Белл Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования – М.: 1999. – С. 158

[5] Гэлбрейт Дж.К. Экономические теории и цели общества / Под ред. акад. Н.Н.Иноземцева и члена-корр. АН СССР А.Г.Милейковского. М.: Прогресс, 1976. – С. 98

[6] Сакайя, Т. Стоимость, создаваемая знаниями, или история будущего // Новая постиндустриальная волна на Западе: Антология / Под ред. В.Л. Иноземцева. - М.: Academia. - 1999. – С.337-371

[7] Ростоу У. Политика и стадии роста. Пер. с англ. – М.: Прогресс. – 2003. – С. 61-106

[8] Тобин Дж. Денежная политика и экономический рост. Пер. с англ. – М.: Книжный дом «Либроком». – 2010. – С. 107

edirlər ki, sosial investisiyanın əsas hədəflərindən biri işçilərin təhsil səviyyəsini və sağlamlığını yaxşılaşdırmaqdan, iş qüvvəsinin mobilliyini artırmaqdan ibarətdir.[9]

Son vaxtlar sosial məsələlərin məşhur tədqiqatçıları arasında iqtisadiyyat üzrə Nobel mükafatı laureatı C.Stiqlisi xüsusi qeyd etmək lazımdır. C.Stiqlisin əsas araşdırmaları konkret milli iqtisadiyyatda və cəmiyyətdə əldə edilmiş sosial-iqtisadi nəticələrin kompleks şəkildə qiymətləndirilməsi zamanı işləyənlərin və bütün əhalinin rifahının artımının keyfiyyət göstəricilərindən istifadə probleminə həsr edilmişdir.[10]

Azərbaycan iqtisadçılarından Ə.C.Muradov, Z.Ə.Səmədzadə, Ş.M.Muradov, İ.H.Alıyev, Ə.P.Babayev, Ə.İ.Bayramov, Ə.Q.Əlirzayev, Ü.Q.Əliyev, T.N.Əliyev, M.A.Əhmədov, T.H.Hüseynov, N.M.İmanov, R.İ.Quliyev, R.A.Quliyev, A.F.Musayev, N.M.Mustafayeva, F.F.Mürşüdlu, V.T.Novruzov, F.P.Rəhmanov, H.B.Rüstəmbəyov, H.A.Xəlilov, A.Ş.Şəkərəliyev və başqalarının əsərlərində investisiya fəaliyyətinin nəzəri və praktiki məsələləri geniş tədqiq edilmiş, sosial sfera sahələrində investisiya problemlərinə baxılmışdır.

Postsovet məkanının iqtisadçıları R.S.Qrinberq, Y.V.Yeqorov, Y.N.Jiltsov, K.İ.Mikulski, Y.Y.Olseviç, P.V.Savçenko, V.N.Çerkovets, L.İ.Yakabson, Y.V.Yakovets və başqaları sosial sferanın müxtəlif aspektlərinin tədqiqi ilə məşğul olmuşlar. S.D.Bodrunov, A.Q.Hacıyeva, V.L.İnozemtsev, V.M.Kulkov, İ.M.Tenyakov və başqa müəlliflər öz işlərində yeni şəraitdə müasir iqtisadiyyatda sosial sferanın əhəmiytəti məsələsinə toxunurlar. Məsələn, bu sahənin araşdırmaçıları N.Kriçevski, V.Lavrov, İ.N.Pçelintseva və başqaları sosial investisiyanın cəmiyyətin inkişafının maraqları baxımından qiymətləndirilməsi məsələlərini qaldırırlar.

Bununla bərabər qeyd etmək lazımdır ki, müasir cəmiyyətdə sosial investisiyaların stimullaşdırılması və onların keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı bir sıra aspektlər elmi ədəbiyyatda hələ lazımınca araşdırılmamışdır. Sosial investisiya tədbirləri həyata keçirilərkən investorların münasib gəlir əldə etməsi imkanı konseptual

[9] Макконнелл Кэмпбелл Р., Брю Стэнли Л. Экономикс: Принципы, проблемы и политика. В 2-х томах. Пер. с англ. – М.: Республика. – 1993. – Т. 2. – С. 171

[10] Доклад Комиссии ООН по оценке экономических результатов и социального прогресса. – Вопросы статис-тики. – 2010. - №№ 11 и 12; 2011.-№№ 2 и 3

baxımdan işlənib hazırlanmadığına görə, özəl kapital sahiblərinin ictimai əhəmiyyətli sosial məsələlərin həllində iştirakının stimullaşdırılması problemi əsasən təsadüfdən təsadüfə həll edilir. Eyni zamanda, sosial investisiyanın əhalinin bütün həyat şəraitinə təsirinin çoxvektorlu xarakterini dəqiqləşdirməyə ehtiyac duyulur. Iqtisadi artıma və bu yolla sosial investisiyanın xarakterinə təsir edən sosial amillərin daha ətraflı öyrənilməsi zəruridir. Təqdim olunan dissertasiya işində məhz belə aspektlər tədqiqat predmetinə çevrilmişdir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının **məqsədi** müasir iqtisadiyyatda və cəmiyyətdə sosial investisiyanın xüsusiyyətlərinin anlamını dərinləşdirmək, konkret iqtisadi sistemdə tənzimlənməsi mexanizminin ən mühüm tərkib hissələrini üzə çıxarmaq və onun səmərəliliyinin yüksəldilməsi istiqamətlərini müəyyənləşdirməkdir .

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq tədqiqatın aşağıdakı **vəzifələri** müəyyən edilmişdir:

- iqtisadiyyatın və müasir cəmiyyətin həyatının fərqli sahələrinin modernləşdirilməsini və davamlı inkişafını təmin etmək üçün investisiyanın həcminin həm kəmiyyət, həm də keyfiyyət baxımından genişlənməsinin, o cümlədən sosial sferada innovasiyaların genişmiqyaslı tətbiqinin zəruri olmasını əsaslandırmaq;
- müasir şəraitdə davamlı və keyfiyyətli iqtisadi artıma yalnız onun sosial tərkib hissəsinin dəstəklənməsi və genişləndirilməsi şərti ilə nail olmağın mümkünlüyü ideyasını gücləndirən əlavə arqumentlər irəli sürmək;
- sosial sferaya investisiyaların daha geniş anlamın – həyatın ümumi keyfiyyətinin artırılmasına yönəldilən sosial investisiyaların tərkib hissəsini təşkil etməsini və bunun müasir cəmiyyətin modernləşdirilməsinin əsas və son məqsədi olduğunu göstərmək;
- müasir şəraitdə iqtisadi artıma təsir göstərən sosial amillərin rolunun artmasının səciyyəsini vermək;
- sosial investisiyaların xüsusi ictimai əhəmiyyət kəsb etməsi və xalis gəlir şəklində birbaşa maliyyə mənfəəti formasında reallaşmaması halları belə, investisiyaların bu növündən sahibkarın ümumiyyətlə gəlir əldə etməsinin mümkünlüyü fikrini daha da dərinləşdirmək;
- sosial sferaya və onunla "yanaşı" sahələrə investisiyaların xüsusi

mexanizmi, eləcə də investisiya sahəsində həyata keçirilən iqtisadi siyasətin qarantı kimi dövlətin xüsusi rolu sosial investisiyaların ictimai əhəmiyyətini və investorların konkret maddi mənfəətini təcrübədə təmin etməsi yanaşmasını aktuallaşdırmaq və zənginləşdirmək;

- Azərbaycan Respublikasında sosial sfera sahələrinin və müasir insanın yaşayış mühitini formalaşdıran digər sahələrin fəaliyyətinin keyfiyyətcə yeni səviyyəsinə nail olmağa yönəldilmiş sosial investisiya qoyuluşlarını genişləndirmək məqsədilə potensial investorlar üçün daha cəlbedici şərait yaradılmasının zəruriliyini əsaslandırmaq və bu şəraitin mahiyyətini açıqlamaq;

- Azərbaycan iqtisadiyyatında konkret sahələr və layihələr üzrə investorlar üçün cəlbedici təkliflər, həmçinin ümummilli, regional və yerli səviyyələrdə güzəştlər təqdim edilməsi imkanlarını tədqiq etmək;

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələrində və Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qarşıya qoyulmuş hədəflərin və vəzifələrin icrası çərçivəsində sosial investisiya sisteminin keyfiyyətcə daha da təkmilləşdirməsinin mümkün olmasını müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim edilən dissertasiyada tədqiqatın **obyekti** müasir iqtisadiyyatda və cəmiyyətdə sosial investisiyaların yönəldiyi sosial sfera sahələri və sosial mühitin həmin sahələrlə qarşılıqlı təsirdə olan müxtəlif elementləridir.

**Tədqiqatın predmeti** müasir Azərbaycanın iqtisadi və ictimai inkişafının xüsusiyyətləri nəzərə alınmaqla sosial investisiya proseslərinin tənzimlənməsi və stimullaşdırılması mexanizmidir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Dissertasiya tədqiqatının **metodoloji əsası** kimi, dialektik və formal məntiq, deduksiya və induksiya, analiz və sintez, mücərrəddən konkretə doğru yüksəliş qəbilindən olan ümumi metodlardan istifadə edilmişdir. Dissertasiyanın **nəzəri əsaslarını** klassik iqtisadi nəzəriyyənin müddəaları, institusionalizm və neoinstitusionalizm nümayəndələrinin tədqiqatları, postsənaye cəmiyyəti konsepsiyaları, həmçinin iqtisadi inkişafın təmin edilməsində cəmiyyətin həyatının sosial aspektlərinin rolunun və əhəmiyyətinin artması haqqında neokeynçiliyin və marksizmin nəzəri müddəaları təşkil edir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya üzərində iş

prosesində informasiya bazası kimi yerli və xarici araşdırmaçıların tədqiqatlarından, rəsmi sənədlərdən və Azərbaycan Respublikasının rəsmi şəxslərinin çıxışlarından, o cümlədən, bütövlükdə milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə Strateji Yol Xəritələrinin, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin müddəalarından, beynəlxalq təşkilatların və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materiallarından istifadə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya tədqiqatının elmi yeniliyi aşağıdakı müddəalarla təsdiqlənir:

1. Göstərilmişdir ki, böhran hallarının nəticələrini aradan qaldırmaq və gələcəkdə milli iqtisadiyyatın davamlı artımını təmin etmək imkanı iqtisadiyyatın və müasir cəmiyyətin həyatının çeşidli sahələrinin modernləşdirilməsi ilə sıx bağlıdır. Bu, öz növbəsində, insanın yaşayış mühitinin müxtəlif sahələrinə investisiyanın həcminin kəmiyyətcə artırılması hesabına innovasiyaların geniş miqyaslı tətbiqini, həmçinin belə investisiyalardan daha keyfiyyətli və səmərəli istifadə olunmasını tələb edir.

2. Əsaslandırılmışdır ki, sosial sferaya investisiyalar daha geniş anlayışın – insanın ümumi həyat səviyyəsinin və keyfiyyətinin yuksəldilməsinə yönəldilən sosial investisiyaların tərkib hissəsidir. Bu, ümumiyyətlə milli iqtisadiyyatın və bütün müasir cəmiyyətin təkmilləşdirilməsi prosesində əsas hədəf hesab edilməlidir.

3. Davamlı iqtisadi artıma təsir edən sosial amillər sırasında müasir cəmiyyətdə rolu tədricən güclənən aşağıdakı amillər seçilmişdir:

- məhsuldar qüvvələrin ümumiyyətlə modernləşdirilməsi, o cümlədən istehsal bazasının təkmilləşdirilməsi, işçilərin həyat səviyyəsinin və yaşayış keyfiyyətinin artırılması;
- iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə institusional təsərrüfat münasibətləri sisteminin təkmilləşdirilməsi;
- müasir dövrdə innovasiyalı artım xarakteri kəsb edən əmək məhsuldarlığının yuksəldilməsi;
- bilavasitə sosial sferaya daxil olan, həmçinin onunla “yanaşı”, insanın yaşayış keyfiyyətinə birbaşa təsir edən sahələrin innovasiyalı inkişafı;
- milli iqtisadiyyatda ümumi investisiya fəaliyyətinin tərkib hissəsi kimi çıxış edən sosial investisiyaların dinamikası;

- istehlakçı tələbinin cari vəziyyəti və inkişaf perspektivləri;

- sosial infrastruktur elementlərinin məcmusunun cari vəziyyəti və inkişaf dinamikası;

4. Əsaslandırılmışdır ki, sosial investisiya qoyuluşlarının səmərəsini təyin edərkən sosial investisiyanın milli təsərrüfat sistemi və cəmiyyət üçün doğurduğu "ikiqat" və ya "kumulyativ" effektin nəzərə alınması məqsədəüyğundur. Bu o deməkdir ki, belə səmərənin ümumi anlayışına aşağıda göstərilən tərkib hissələri daxildir:

- cəmiyyətin sosial mühitində müxtəlif sahələrdə həm birbaşa, həm də gələcəkdə baş verə biləcək multiplikativ dəyişiklikləri nəzərdə tutan dolayı sosial səmərə;

- dolayı sosial səmərənin mövcudluğu, yəni sosial investisiyalar əvvəlcə iqtisadiyyatın və ya ictimai həyatın müəyyən "qonşu" sferalarında pozitiv dəyişikliklərə səbəb olur və yalnız sonradan insanın həyat şəraitində və yaşayış keyfiyyətində bilavasitə əks olunur.

5. İzah edilmişdir ki, sosial investisiyalar xüsusi ictimai əhəmiyyət kəsb edir və onlar xalis gəlir şəklində birbaşa maliyyə mənfəəti gətirməyə bilər, lakin bu o demək deyil ki, investisiyaların bu növündən sahibkarın gəlir əldə etməsi mümkün deyildir. Sosial investisiya özəl investorlar üçün münasib gəlirin təmin edilməsi ilə tamamilə uyğundur və özəl biznes nümayəndələrinin sosial sferaya yönəldilən investisiyada fəallaşması üçün zəruri şərait yaradılması sosial sferaya və sosial mühitin digər elementlərinə investisiyaların xüsusi mexanizmi vasitəsilə təmin ediməlidir.

6. Əsaslandırılmışdır ki, sosial investisiya mexanizminin ən mühüm funksiyası potensial investorlar üçün daha cəlbedici şərait yaratmaqdan ibarətdir. Belə şərait, bütün milli iqtisadiyyat çərçivəsində ümumi əlverişli işgüzar mühit yaradılmasını, həmçinin sosial əhəmiyyətli ayrı-ayrı layihələrin reallaşdırılması zamanı ümummilli, regional və yerli idarəetmə səviyyələrində "nöqtəvi" xarakterli vergi, maliyyə, inzibati-hüquqi və başqa güzəştlər sisteminin formalaşmasını nəzərdə tutur.

7.Göstərilmişdir ki, konkret ölkə şəraitində həm bütövlükdə özəl sahibkarlığın, həm də kiçik və orta biznes subyektlərinin sosial investisiyada daha fəal iştirak etməsi zəruridir və prinsip etibarilə mümkündür. Belə imkanlar yalnız o halda təmin oluna bilər ki, həm biznes üçün ümumi vergi güzəştləri sistemi, həm də kiçik sahibkarlığın

maliyyə imkanlarının genişləndirilməsinə bank-kredit dəstəyinin xüsusi çevik formaları tətbiq edilsin. Bundan başqa, sosial investisiyada dövlətin iştirakının saxlanılması bu və ya digər layihələrin özəl investorlar üçün etibarlılığına zəmanət və həmin layihələrin ictimai əhəmiyyətinin indikatoru rolunu yerinə yetirir.

8.Aparılmış tədqiqat əsasında aşkar edilmişdir ki, Azərbaycan Respublikasında özəl biznesin maliyyə-kredit imkanlarının genişlənməsi ilə əlaqədar, xüsusi halda, Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələrində və Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qarşıya qoyulmuş hədəflərin və vəzifələrin icrası çərçivəsində sosial investisiya sisteminin keyfiyyətcə daha da təkmilləşdirilməsi həyata keçirilə bilər.

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya tədqiqatının nəzəri müddəalarından müasir iqtisadiyyatda sosial sferanın və bütövlükdə müasir cəmiyyətdə sosial mühitin inkişafı problemləri ilə bağlı gələcək elmi araşdırmalarda istifadə edilə bilər. Bundan əlavə, müəllifin gəldiyi nəticələr Azərbaycanın milli iqtisadiyyatında sosial investisiya proseslərinin dövlət tənzimləməsinin istiqamətlərinin və formalarının işlənib hazırlanmasında nəzərə alına bilər.

Dissertasiya müəllifinin təklif etdiyi praktik tövsiyələrdən bütövlükdə milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə Strateji yol xəritələrində və Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə təsbit olunmuş sosial sfera sahələrinin inkişafına və sosial investisiya proseslərində özəl biznesin iştirakı imkanlarının yaxşılaşdırılmasına aid müddəaların reallaşdırılması üzrə konkret qərarların hazırlanması zamanı istifadə oluna bilər.

**Tədqiqat işinin nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas müddəa və nəticələri müəllifin məruzə ilə çıxış etdiyi beynəlxalq və respublika səviyyəli elmi konfranslarda məruzə edilmiş və açıq mətbuat-da nəşr olunmuşdur. Bunlardan "Национальная экономическая безопасность: потенциал развития и вызовы цифровой экономики" (Москва, 13 октября 2018г.), "Экономика как объект междисциплинарных исследований" [Четвертый международный политэкономический конгресс] (Москва, 14-16 мая 2019г.**),** "Обеспечение национальной экономической безопасности: новые вызовы и приоритеты" (Москва, 12 октября 2019г), "Россия в

координатах ударных перемен: социум, экономика, техносфера" (Москва, 4-6 декабря 2019 г.),"Azərbaycanın iqtisadi inkişaf strategiyası" (Bakı, 24 dekabr 2019-cu il), **"**International conference digital economy: modern challenges and real opportunities" (Baku, 13-14 february 2020), "Стимулирование приоритетных направлений социального инвестирования в Азербайджанской Республике" ( Уфа, 22 мая, 2020 г.),"Economic and Social Development".[55th International Scientific Conference on Economic and Social Development] (Baku, 18-19 June 2020) və s. göstərmək olar.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları və irəli sürülən təkliflər, tövsiyələr əsasında ümumi həcmi 10,3 ç.v. olan 15 məqalə (o cümlədən xarici nəşrlərdə 9 məqalə) dərc olunmuşdur.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiyanın strukturu tədqiqatın məqsədi və qarşıya qoyulmuş vəzifələrilə müəyyən olunur. Dissertasiya işi giriş (20177 işarə), üç fəsil (I fəsil – 101045 işarə, II fəsil – 92796 işarə, III fəsil – 61777 işarə), nəticə (6409 işarə), Azərbaycan, rus və ingilis dillərində olan ədəbiyyat siyahısından və qəbul edilmiş standartlara uyğun 163 səhifə kompüter yazısından ibarətdir.

# DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**Giriş**

**Fəsil 1. Sosial investisiyalar mexanizminin nəzəri və metodoloji əsasları**

1.1. Sosial investisiyaların mahiyyətinin və formalaşması mexanizminin tədqiqinə konseptual yanaşmalar
1.2. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi baxımından sosial investisiya fəallığı
1.3. Sosial yönumlu siyasət və sosial investisiyalar: qarşılıqlı asılılıq müstəvisində

**Fəsil 2. Sosial sferaya investisiya qoyuluşu mexanizmi**

2.1. İnvestisiya fəaliyyətinin obyekti kimi sosial sferanın inkişafı dinamikasının təhlili
2.2. Milli iqtisadiyyatda sosial investisiyaların inkişafına istiqamətlənmiş investisiya mühitinin formalaşması
2.3. Sosial investisiyaların maliyyələşdirilməsi: müasir irəliləyişlərin özəllikləri

**Fəsil 3. İqtisadiyyatın təkamülündə sosial investisiyaların səmərəliliyinin yüksəldilməsi**

3.1. İqtisadi artımın sosial amillərinin dəyərləndirilməsi
3.2. Azərbaycan Respublikasında sosial investisiyaların prioritet istiqamətlərinin stimullaşdırılması xüsusiyyətləri
3.3. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramlarının reallaşdırılması kontekstində sosial investisiyalar mexanizminin təkmilləşdirilməsi

**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

### 1. İnnovasiyalı modernləşmə, sosial artım amilləri və sosial investisiyaların təkamülü

Dünya maliyyə-iqtisadi böhranının nəticələrinin neqativ təsirinin davam etdiyi müasir şəraitdə ölkəmizin qarşısında xarici təsirlərə və konyunktur tərəddüdlərə meyilli olmayan davamlı iqtisadi artım mexanizminin formalaşdırılması məsələsi durur. Belə artımın təmin edilməsi üçün sadəcə innovasiyalı inkişaf yolunu seçmək kifayət deyildir. Bunun üçün həm iqtisadiyyatın, həm də bütövlükdə cəmiyyətin məhz innovasiyalı modernləşdirilməsi zəruridir.

İnnovasiyalı modernləşmə məfhumu altında bu tədqiqatda aşağıdakı məqamlar nəzərdə tutulur: birincisi, elmin və texnikanın ən yeni nailiyyətləri əsasında istehsal aparatının və bütövlükdə milli iqtisadiyyatın əsas fondlarının keyfiyyətcə yenilənməsi; ikincisi, milli iqtisadiyyatda mövcud olan təbii, maddi-maliyyə və insan resurslarından innovasiyalı istifadə mexanizminin formalaşması; üçüncüsü, ixtisaslı mütəxəssislər hazırlanması və onların ixtisas səviyyəsinin artırılması üçün ən qabaqcıl metodika və sistemlərdən istifadə edilməsi, texnoloji cəhətdən təchiz edilmiş yeni iş yerlərinin yaradılması əsasında mövcud kadr potensialının keyfiyyətcə yeniləməsi; dördüncüsü, sosial-iqtisadi inkişafda elmi-texniki tərəqqinin nailiyyətlərinin daha səmərəli istifadəsinə yönəldilmiş istehsal münasibətləri və ictimai münasibətlər sisteminin təkmilləşdirilməsi; beşincisi, insanın yaşama mühitinin hərtərəfli təkmilləşdirilməsi və bu yolla onun həyatının keyfiyyətinin artırılması, əmək fəaliyyətinin ümumi şəraitinin yaxşılaşdırılması.

Müasir cəmiyyətdə iqtisadi artıma təsir edən sosial amillər yuxarıda göstərilən bütün məsələlərin həllinə imkan yaradır. Son zamanlar belə amillərin rolu daha da artmaqdadır. Buraya aşağıdakılar aiddir:

- məhsuldar qüvvələrin ümumi modernləşdirilməsinin ayrılmaz tərkib hissəsi kimi, işçilərin və bütövlükdə əhalinin yaşayış səviyyəsinin və həyatın keyfiyyətinin yüksəldilməsi;
- adambaşına ümumi daxili məhsul istehsalı, orta ömür müddəti, vətəndaşlara tibbi xidmət və onların təhsil səviyyəsi kimi sahələrdə yüksək nəticələr əldə edilməsi əmək məhsuldarlığının artmasından həlledici dərəcədə asılıdır və bu göstəricinin innovasiyalı tərkib hissələri artmaqdadır;
- həm bilavasitə sosial sferaya daxil olan, həm də bütövlükdə

müasir insanın yaşam mühitini formalaşdıran “yanaşı” sahələrin istehsal sferası ilə paralel innovasiyalı inkişafının təmin edilməsi;

- iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə institusional-təsərrüfat münasibətləri sisteminin təkmilləşdirilməsi və nəticə etibarilə həm bu sistemin özünün sosial məzmununun zənginləşməsi, həm də əks əlaqə prinsipi üzrə iqtisadi artımın məzmununa müsbət təsir göstərilməsi;
- sosial xarakterli xidmətlərə tələbatın dinamikasını göstərən, əhalinin istehlakçı tələbiının cari vəziyyəti və gələcək inkişafı;
- bir tərəfdən, təhsil, elmi-tədqiqat fəaliyyəti, səhiyyə, mədəniyyət, istirahət və asudə vaxt obyektlərinin məcmusu kimi, digər tərəfdən, daha geniş mənada, həmin elementlərin bilavasitə fəaliyyəti kimi başa düşülən və konkret sosial məsələlərin həlli vasitəsilə yaşayış keyfiyyətinin təkmilləşdirilməsinə mühüm töhfə verən, sosial infrastruktur elementlərinin məcmusunun cari vəziyyəti və inkişaf dinamikası;
- milli iqtisadiyyatda ümumi investisiya fəaliyyətinin tərkib hissəsi kimi çıxış edən bilavasitə sosial investisiyaların dinamikası.

Sadalanan amillərin sonuncusu xüsusilə mühüm rol oynayır, çünki yuxarıda göstərilən bütün məsələlərin reallaşdırılması ümumi daxili məhsulun strukturunda maddi məsrəflərin müvafiq artımını tələb edir, bu isə, o cümlədən insanın yaşam mühitinin müxtəlif sahələrinə investisiyanın həcminin kəmiyyətcə artımını nəzərdə tutur. Dissertasiyanın müəllifi bu araşdırma kontekstində sosial investisiyalar məfhumu altında insanın inkişafına və bilavasitə onun yaşam mühitinə sərmayə qoyulan belə vəsaitlərin məcmusunu nəzərdə tutur.

Azərbaycan Respublikasında ümumi investisiya fəaliyyətinin tərkib hissəsi kimi dövlət investisiyasına böyük əhəmiyyət verilir. Statistik materialların təhlili nəticəsində məlum olmuşdur ki, 2019-cu ildə dövlət büdcəsinin xərcləri 2005-ci ilə nisbətən cəmi 11,4 dəfə, eyni dövr ərzində büdcədən əsaslı xərclər isə 20,2 dəfə artmışdır. Beləliklə, dövlət büdcəsinin xərclərində əsaslı xərclərin xüsusi çəkisi 2005-ci ildəki 17,7 faiz olduğu halda 2019-cu ildə müvafiq göstəricinin xüsusi çəkisi 31,4 faizə qədər yüksəlmişdir. Dövlət büdcəsində investisiya qoyuluşlarının artması ilə əlaqədar, əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsində onun xüsusi çəkisi də artmışdır. Əsas kapitala yönəldilmiş sərmayə qoyuluşlarının maliyyələşdirilməsində dövlət büdcəsinin xüsusi çəkisi əvvəlki on üç ilə nisbətən

əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2005-cü ildə cəmi 7,5 faiz təşkil edən bu göstəricinin büdcədə xüsusi çəkisi 2019-cu ildə 25,4 faizə çatmışdır. Beləliklə dövlət büdcəsinin tərkib hissəsi olan əsaslı vəsaitə kapital qoyuluşlarına xərclər 2005-ci ildəki 159,9 milyon manat ilə müqayisədə 2019-cu ildə 38,7 dəfə artırılaraq 6,2 milyard manata çatdırılmışdır. Bu isə genişmiqyaslı infrastruktur layihələrini, o cümlədən sosial layihələri maliyyələşdirmək imkanlarının artması deməkdir (cədvəl 1).

**Cədvəl 1**

**Dövlət büdcəsinin investisiya xərcləri (mlyn. manat)**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri | 2140,7 | 11765,9 | 17784,5 | 17751,3 | 17594,5 | 22731,6 | 24425,9 |
| Cari xərclər | 1721,9 | 7195,3 | 10582,2 | 13052,8 | 12526,1 | 15316,1 | 16762,8 |
| büdcədə xüsusi çəkisi, faizlə | 80,4 | 61,2 | 59,5 | 73,5 | 71,2 | 67,4 | 68,6 |
| Əsaslı xərclər | 379,2 | 4518,1 | 6637,7 | 3202,8 | 3810,1 | 7415,6 | 7663,1 |
| büdcədə xüsusi çəkisi, faizlə | 17,7 | 38,4 | 37,3 | 18,0 | 21,7 | 32,6 | 31,4 |
| o cümlədən: | | | | | | | |
| Əsaslı vəsait qoyuluşu | 159,9 | 4132,4 | 4987,5 | 2685,7 | 2689,3 | 5059,2 | 6199,4 |
| büdcədə xüsusi çəkisi, faizlə | 7,5 | 35,1 | 28,0 | 15,1 | 15,3 | 22,3 | 25,4 |

*Mənbə: Cədvəl müəllif tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir (www.stat.gov.az)*

Obyektiv olaraq belə investisiyaların daha keyfiyyətli və səmərəli istifadəsi məsələsi qarşıya çıxır və bununla əlaqədar, iqtisadi sistemin özünün effektivliyinə və keyfiyyətinə daha yüksək tələblər irəli sürülür.

**2. Sosial investisiya və sosial sferaya investisiyalar**

Dissertasiya tədqiqatında sosial investisiyalara, ilk növbədə, bütün milli iqtisadiyyatın, insanın və bütövlükdə cəmiyyətin inkişafına, daha konkret desək, insanın həyat səviyyəsinin və yaşam keyfiyyətinin ümumi artımına təsir mövqeyindən baxılması fikri inkişaf etdirilir. Başqa sözlə desək, sosial investisiyalara sadəcə sosial sfera sahələrinə investisiya qoyuluşlarının məcmusu kimi deyil, bu anlayışa daha geniş mənada baxmaq lazımdır.

Bu anlayışa ilk növbədə milli iqtisadiyyatın sosial sfera sahələri ilə "yanaşı" olan elə sahələri və ayrı-ayrı istehsalatlar daxil edilməlidir

ki, həmin sahələrdə vəziyyətin yaxşılaşması “əks əlaqə” prinsipi əsasında insanın ümumi inkişaf səviyyəsinin artımına bilavasitə təsir etmiş olsun. İnsanların gündəlik həyatının keyfiyyətinə birbaşa təsir göstərən iqtisadiyyatın belə “qonşu” seqmentlərinə, məsələn, mənzil-kommunal təsərrüfatının fəaliyyətini təmin edən sahələr kompleksi, həmçinin nəqliyyat kompleksinin sərnişindaşımaları yerinə yetirən hissəsi aid edilə bilər.

Sosial investisiyanın iqtisadiyyata və cəmiyyətə təsiri yalnız sosial sfera ilə “yanaşı” iqtisadiyyat sahələri ilə məhdudlaşmır və bilavasitə istehsal sferasını da əhatə edir. Məsələn, təhsil sferasında tətbiq edilən müasir mütərəqqi idarəçilik sxemləri və istehsal texnologiyaları praktikada kadrların peşəkar hazırlıq səviyyəsinin keyfiyyətcə artımı, onların yenidənhazırlanması və bütövlükdə təhsil prosesinin intellektuallaşması şəklində reallaşır.

Dissertasiya müəllifinin fikrincə, sosial investisiyaların həcmini, istiqamətlərini və başqa göstəriciləri qiymətləndirərkən sosial sfera sahələrinin müasir insana təsiri baxımından onların sıx qarşılıqlı əlaqələrində təzahür edən real vəhdətini və sosial mühitin başqa elementlərini nəzərə almaq lazımdır. Buna görə, məsələn, iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi, eləcə də bu siyasətin elmi təhlili zamanı sosial investisiyalar anlayışına sosial sfera sahələrinə, “yanaşı” sahələrə və başqa obyektlərə yönəldilən investisiyaların sadə hesabi cəmi kimi baxmaq olmaz, yəni investisiyanın bu növünün iqtisadiyyat və cəmiyyət üçün çoxtərəfli effekti hökmən nəzərə alınmalıdır.

Bu halda həm iqtisadiyyatın, həm də bütün cəmiyyətin keyfiyyətcə inkişafına yüksək dərəcədə təsir göstərən ayrı-ayrı sahələrin rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, 2005-2019-cu illər dövründə Azərbaycan Respublikasında elmi-tədqiqat fəaliyyətinə çəkilmiş ümumi xərclər 5,9 dəfə artırılaraq 29,2 milyon manatdan 171,1 milyon manata çatdırılıb.[11] Bu halda elmin dövlət büdcədən maliyyələşdirilməsinin həcmi 28,8 milyon manatdan 122,3 milyon manata çatdırılmış, yəni 4,3 dəfə artmışdır.

Bu onu göstərir ki, əvvələn, Azərbaycan dövləti sosial sferanın əsas sahəsi olan elmə investisiyaların maliyyələşdirilməsində aparıcı rol

---

[11] Azərbaycanda təhsil,elm və mədəniyyət. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı, 2020. s.351

oynayır, ikincisi, özəl kapital elmi-tədqiqat fəaliyyətinə sərmayə qoyulmasına sürətlə olmasa da, getdikcə daha fəal şəkildə qoşulur. Bu fakt belə nəticə çıxarmağa əsas verir ki, qeyri-dövlət sektorunda potensial maliyyə ehtiyatları cəmlənmişdir və əlverişli şəraitdə həmin maliyyə ehtiyatları elm, təhsil və səhiyyə sahələrinə sərmayə qoyula bilər.

2005-2019-cu illərdə Azərbaycan Respublikasında təhsil sahəsinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsinin mütləq rəqəmlərlə ifadə edilən həcmi 5,9 dəfə artırılaraq 372,5 milyon manatdan 2,196 milyard manata çatdırılıb. Eyni zamanda səhiyyə sahəsində büdcə xərclərinin mütləq rəqəmlərlə ifadə edilən həcmi 2005-ci ildəki 115,3 milyon manatdan 2019-cu ildə 873,6 milyon manata qədər və ya 7,6 dəfə artıb. Mədəniyyət və incəsənət sahəsinin inkişafı büdcə xərclərinin artması sayəsində təmin edilir. Məsələn, həmin dövrdə bu sahəyə büdcə xərclərinin ümumi həcmi 45,5 milyon manatdan 269,2 milyon manata qədər, yəni 5,9 dəfə artmışdır (Cədvəl 2).

**Cədvəl 2**

**Azərbaycanda dövlət büdcəsindən sosial sfera sahələrinə 2005-2019-cu illər ərzində investisiya qoyuluşları (mlyn.manat)**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri - cəmi | 2140,7 | 11765,9 | 11784,5 | 11751,3 | 17594,5 | 22731,6 | 24425,9 |
| ondan: | | | | | | | |
| Təhsil (mlyn.manat) | 372,5 | 1180,0 | 1605,1 | 1754,4 | 1742,7 | 1966,6 | 2195,7 |
| Təhsilin büdcədə xüsusi çəkisi, % | 17,4 | 10,0 | 13,6 | 14,9 | 9,9 | 8,7 | 9,0 |
| Elm (mlyn.manat) | 28,8 | 92,8 | 113,2 | 110,2 | 109,8 | 117,8 | 122,3 |
| Elmin büdcədə xüsusi çəkisi, % | 1,3 | 0,8 | 1,0 | 0,9 | 0,6 | 0,5 | 0,5 |
| Səhiyyə (mlyn.manat) | 115,3 | 429,2 | 708,2 | 702,5 | 704,7 | 709,9 | 873,6 |
| Səhiyyənin büdcədə xüsusi çəkisi, % | 5,4 | 3,6 | 6,0 | 6,0 | 4,0 | 3,1 | 3,6 |
| Mədəniyyət və incəsənət (mlyn.manat) | 45,5 | 145,2 | 236,3 | 240,1 | 214,8 | 227,2 | 269,2 |
| Mədəniyyət və incəsənətin büdcədə xüsusi çəkisi, % | 2,1 | 1,2 | 2,0 | 2,0 | 1,2 | 1,0 | 1,1 |

*Mənbə: Azərbaycanın stasistik göstıriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı, 2019, 2020. S..400;394.*

Bütövlükdə demək olar ki, son bir neçə ildə Azərbaycan Respublikasında sosial sferanın əsas sahələrinə investisiya qoyuluşunun mütləq həcminin artması, praktiki olaraq bütün sahələrdə əhalinin bu sferaya aid xidmətlərin əsas dəsti ilə daha yüksək səviyyədə təmin edilməsinə imkan vermişdir.

Eyni zamanda, mütləq göstəricilərdən imtina etsək, görərik ki, 2005-ci ildəki vəziyyətlə müqayisədə son illərdə dövlət büdcəsindən maliyyələşdirmənin ümumi həcmində sosial sferanın əsas sahələrinin xüsusi çəkisinin bir qədər azalması meyli müşahidə olunur. Aydın olur ki, Azərbaycan dövlətinin bütövlükdə sosial yönümlü siyasətinə baxmayaraq, sosial investisiyaların dövlət səviyyəsində maliyyələşdirilməsi imkanlarının genişləndirilməsində obyektiv məhdudiyyətlər mövcuddur, ona görə də belə maliyyələşdirmə mənbələrinin özəl investorların vəsaiti hesabına genişləndirililməsi məsələsi yenə aktualdır.

Azərbaycan əhalisinin həyat səviyyəsinin və bütövlükdə onun tədiyə qabiliyyətinin artması buna obyektiv şərait yaradır. Bu da öz növbəsində, sosial sfera sahələrində, o cümlədən ödənişli əsasda təqdim edilən xidmətlərin həcminin genişləndirilməsi məsələsini qaldırmağa əsas verir. Bu halda, ilk növbədə, dövlət tərəfindən sosial zəmanətlərin həcminin nəinki hökmən saxlanması, həm də genişləndirilməsi şərtilə pullu təhsil və səhiyyənin genişlənildirilməsi imkanları haqqında söhbət gedə bilər.

### 3. Sosial investisiyanın effektivliyi

Sosial investisiyanın çoxtərəfli effektini müəyyən etmək üçün, ilk növbədə, iqtisadiyyatın və cəmiyyətin inkişafında belə investisiyanın bilavasitə hədəflərini təhlil etmək məqsədəuyğundur. Belə hədəflərə həyat səviyyəsinin aşağıdakı göstəricilərinin müsbət dinamikası nümunə ola bilər:

- orta ömür müddəti,
- işləyən əhalinin adambaşına əməkhaqqının səviyyəsi ilə müəyyən edilən pul gəlirləri və real gəlirlər,
- sosial ödəmələrin və güzəştlərin həcmi,
- istehlak qiymətləri indeksinin dinamikası,
- inflyasiya səviyyəsi,
- mənzillə təmin olunmağın səviyyəsi və əlyetərliliyi,
- sosial (təhsil, tibbi, məişət və kommunal) xidmətlərin əlyetərliliyi,

− işsizlik dərəcəsi.

Sosial sahələrə sərmayə yatırılanda bütövlükdə insan potensialının keyfiyyətinin artması şəklində sinergetik effekt yaranır və bu effektin müsbət təsiri bütün iqtisadi inkişafın nəticələrində hökmən özünü göstərir. Başqa sözlə desək, sosial investisiyanın "ikiqat" və ya "kumulyativ" effekti müşahidə olunur. Məsələn, elmi araşdırmalara, təhsil, işçilərin sağlamlığının yaxşılaşdırılması və sair sahələrdə nailiyyətlərə investisiyalarla bağlı xərclər, gələcəkdə istehsal sahəsinə savadlı mühəndis-texniki kontingentin və fəhlə peşələri üzrə yüksək ixtisaslı mütəxəssislərin gəlməsi hesabına artıqlaması ilə ödənilir. Bu halda, məsələn, elmi araşdırmaların təşkili sahəsində baş verən keyfiyyət dəyişiklikləri, həm də tədqiqatların nəticələrinin əmtəə istehsalı sferasına sürətlə tətbiq edilməsi vasitəsilə birbaşa və sanballı maddi səmərə gətirir.

Məsələnin mahiyyətinin açıqlanmasına kömək göstərə biləcək bir məqam da var. Müasir dünyada iqtisadiyyatın artımı və bütövlükdə sosial inkişaf üçün turizm sahəsində yaranan multiplikativ effekti Azərbaycanın timsalında əyani nümayiş etdirmək olar. Belə ki, hazırda turizm sahəsinin Azərbaycanda ÜDM istehsalına birbaşa töhfəsi 4,5 faizə yaxındır, ölkə iqtisadiyyatı üzrə ümumi məşğulluğun təqribən 1,2 faizini bu sahə təmin edir. 2019-cu ilin yekunlarına görə, ölkəmizin turizm sahəsi 2,9 milyon insana öz xidmətlərini təqdim etmişdir ki, bu da, 2014-cü ilin müvafiq göstəricisindən 32,6 faiz, 2016-cı ilin müvafiq göstəricisindən isə 40,0 faiz çoxdur. Bizim hesablamalarımıza əsasən, son 5 ildə turizm sferasına aid müəssisələrin sayı orta hesabla hər il 14,7 faiz, ölkəmizə gələn əcnəbi turistlərin sayı isə hər il orta hesabla 5,8 faiz artmışdır. Beləliklə, indiki mərhələdə turizm sektoru Azərbaycan iqtisadiyyatının uzunmüddətli və sabit artım müşahidə olunan sektorlarından biridir.

Eyni zamanda turizm sənayesinə investisiyaların ümumi həcmi son onillikdə maksimal səviyyədən 2014-cü ildə qeydə alınmış 2,2 milyard manatdan bu dövr üçün minimal səviyyəyə 2018-ci ildə qeydə alınmış 229,7 milyon manata qədər azalmışdır. 2019-cu ilin yekunlarına görə məlum oldu ki, vəziyyət turizm sahəsində heç də yaxşılaşmayıb: turizm sahəsinə investisiyaların həcmi cəmi 133,7 milyon manat təşkil edib, yəni 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə daha 96 milyon manat (və ya 41,8 faiz) azalıb (cədvəl 3).

**Cədvəl 3**

**Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər və Azərbaycana gələn turistlərin sayı**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2014-2019-cu illərdə orta artım sürəti |
|---|---|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 41886 | 49449 | 43477 | 46837 | 53222 | 58972 | - |
| Azərbaycana gələn turistlərin sayı, min nəfər | 2159,7 | 1921,9 | 2044,7 | 2454,0 | 2605,3 | 2863,5 | - |
| Əvvəlki ilə nisbətən, faizlə | 100 | 88,9 | 106,4 | 120,0 | 106,2 | 109,9 | 5,8 |
| Turizm sahəsində yaradılmış əlavə dəyər, mlyn man. | 2404,2 | 2437,3 | 2746,1 | 3151,2 | 3405,5 | 3704,9 | - |
| Turizm sənayesinin YDM-də xüsusi çəkisi, faizlə | 4,1 | 4,5 | 4,5 | 4,5 | 4,3 | 4,5 | - |
| Turizm sferasina aid müəssisə-lərin sayı | 218 | 243 | 272 | 339 | 374 | 432 | - |
| Əvvəlki ilə nisbətən, faizlə | 100 | 111.5 | 111.9 | 124.6 | 110.3 | 115.5 | 14,7 |
| Turizm sənayesinə qoyulan investisiyalar, milyon man. | 2204,0 | 1063,9 | 363,0 | 267,3 | 229,7 | 133,7 | - |

*Mənbə: Azərbaycanda turizm. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Bakı, 2020. s.12,19,22.*

Bizim fikrimizcə, xarici turistləri qəbul edən və respublikamızın vətəndaşlarına istirahət imkanları təqdim edən infrastrukturun daha da inkişaf etdirilməsinə və bu sahəyə investisiya qoyuluşlarının artırılmasına ehtiyaç vardır. Digər tərəfdən, Azərbaycanın təbii-coğrafi şəraiti inkişaf etmiş ölkələrdən daha çox sayda turist cəlb edilməsi üçün mübarizədə ölkəmizin rəqabət üstünlüklərini reallaşdırmaq məqsədilə "qonaqpərvərlik sferası"nı keyfiyyətcə inkişaf etdirməyə imkan verir.

Sosial investisiyalara yalnız birbaşa iqtisadi və birbaşa sosial effekt (həm də çox vaxt qısamüddətli perspektivdə) əldə edilməsi baxımından yanaşmaq düzgün olmazdı. Bu halda, cəmiyyətin sosial mühitində gələcəkdə baş verəcək multiplikativ dəyişikliklərlə bağlı vasitəli sosial effekt də hökmən nəzərə alınmalıdır.

Belə uzaq sosial effektin təminatına nümunə kimi elmə, xüsusilə

fundamental elmə investisiyaları göstərmək olar: bu investisiyalar qısa müddətdə mənfəət gətirmir, belə xərclərin çıxarılması illərlə uzana bilər. Buna görə ən müasir texniki səviyyədə təchiz edilmiş elm və təhsil sahələrinə investisiya proseslərinin stimullaşdırılmasında dövlətin rolunu bir daha vurğulamaq lazımdır. Bu məsələdə dövlətin rolu iqtisadiyyatın və bütün ictimai həyatın hər hansı başqa sahələri ilə müqayisədə daha vacibdir.

Bundan başqa, yatırılmış sosial investisiyalardan gələcəkdə gözlənilən sosial effektlə bərabər, həm də vasitəli sosial effekti nəzərə almaq lazımdır. Belə effekt o halda yaranır ki, sosial investisiyalar əvvəlcə iqtisadiyyatın və ya ictimai həyatın hər hansı "yanaşı" sferalarında müsbət dəyişikliklərə səbəb olur və yalnız müəyyən müddət keçəndən sonra onların effekti sosial sferada da bilavasitə hiss edilir.

İnnovasiyaların tətbiqi, məsələn, əhalinin həyatının keyfiyyətində mühüm müsbət dəyişikliklərə səbəb ola bilər. Bu halda yadda saxlamaq lazımdır ki, istənilən innovasiyalar – elmi kəşflər, texniki-texnoloji təkmilləşdirmələr və ya idarəçilik proseslərində mütərəqqi dəyişikliklər əvvəlcə maddi istehsal sahəsində reallaşır, sonra isə həmin sahədə bu innovasiyalar əsasında istehsal olunmuş daha keyfiyyətli və daha artıq miqdarda məhsul sosial sferada istifadə edilir. Və artıq burada, əhali tərəfindən istehlak ediləndə, bu məhsul həmin maddi istehsal sahələrində əməyin təşkilinin, əmək şəraitinin və onun keyfiyyətinin yaxşılaşması şəklində səmərəni təmin edir. Beləliklə, vasitəli sosial effekt reallaşır.

Ümumiyyətlə sosial sferanın konkret sahələrinin və ayrı-ayrı sosial obyektlərin işinin yüksək keyfiyyəti bu işlərə sərmayə qoyulan vəsaitin həcmi ilə deyil, həyata keçirilmiş investisiyalardan istifadənin səmərəliliyi göstəricisi ilə müəyyən edilir. Eyni sözlər sosial investisiyaların özlərinə də aiddir: onların səmərəliliyi kəmiyyət göstəriciləri ilə deyil, müəyyən keyfiyyət hədəflərinə nail olunub-olunmaması ilə ölçülməlidir.

Sosial investisiya proseslərində dövlətin iştirakı müstəsna əhəmiyyət kəsb edir, çünki bu halda dövlət:

- birincisi, belə investisiyanın faydalı və perspektivli olması haqqında özəl biznesə siqnal verir,

- ikincisi, iqtisadi artımın daha da sürətlənməsinə bilavasitə imkan yaradır.

Buraya onu da əlavə etmək lazımdır ki, hazırda dövlət müəyyən mənada, sosial investisiya üçün nəzərdə tutulmuş vəsaitlərdən daha səmərəli istifadənin istiqamətlərini təyin edən dispetçer rolunu yerinə yetirir.

**4. Sosial investisiyaların ictimai prioretitləri və ictimai gəlirliliyi**

Dissertasiya müəllifinin fikrincə, müasir dünyada əhalinin rifahının, həyat səviyyəsinin və yaşam keyfiyyətinin dinamikası kimi göstəricilər üzrə cəmiyyətin və iqtisadiyyatın təkamülü iqtisadi artımın keyfiyyətini təmin edən ən ali sosial meyar hesab edilməlidir. Bu mövqelər iqtisadi artımın ictimai prioritetləri sayıla bilər. Sosial investisiya bilavasitə belə hədəflərin reallaşdırılmasına xidmət edir və onun xüsusi ictimai əhəmiyyəti bununla təyin edilir.

Bu, konkret ölkənin əhalisinin ümumi yaşayış keyfiyyətinin vəziyyətinə bilavasitə təsir göstərir. Məsələn, müəllifin hasablamalarına görə, 2000-ci ildən 2019-cu llədək olan dövrdə Azərbaycan əhalisinin real gəlirləri 4,4 dəfə artmışdır (Cədvəl 4).

**Cədvəl 4**

**Azərbaycanda əhali gəlirlərinin real artım sürətləri**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Əvvəlki ilə nisbətən, faizlə | 100 | 111,6 | 107,2 | 101,7 | 96,7 | 96,0 | 105,5 | 104,7 |
| 2000-ci ilə nisbətən, faizlə | 100 | 159,8 | 309,9 | 428,0 | 414,8 | 398,2 | 420,0 | 439,9 |

*Mənbə: Müəllif tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir (www.stat.gov.az)*

Bu fakt inandırıcı şəkildə sübut edir ki, son illərdə Azərbaycanda həyata keçirilən ümumi sosial-iqtisadi siyasət sayəsində bütövlükdə ölkə əhalisinin həyat səviyyəsi və yaşayış keyfiyyəti yaxşılaşmışdır. Bu nəticələrin qazanılmasında ölkənin milli iqtisadiyyatına davamlı sosial investisiya prosesləri də mühüm rol oynamışdır.

Sosial investisiyaların hədəfləri xüsusi ictimai əhəmiyyət kəsb etdiyi üçün nəzərə almaq lazımdır ki, həmin investisiyalar xalis mənfəət şəklində birbaşa maliyyə gəliri gətirməyə bilər. Lakin bu fakt heç də o demək deyil ki, investisiyaların bu növündən gəlir əldə etmək qeyri-mümkündür. Beləliklə, investisiyaların bu növünün sosial xarakteri belə

investisiyalardan gəlir əldə etməyin mümkünlüyünü əsla istisna etmir. Sosial investisiya fərdi investorlar üçün münasib gəlirin təmin edilməsi ilə tam uzlaşır və bunun üçün zəruri şərait yaradılması özəl biznes nümayəndələrinin sosial investisiyada fəal iştirakının obyektiv əsasıdır.

Həqiqətən, istər fərdi, istərsə də korporativ sahibkarlıq fəaliyyətinin əsas məqsədi maksimum mənfəət əldə etməkdir və əslində bu fəaliyyət lap əvvəldən bundan ötrü yaranır. Eyni zamanda, məhsuldar qüvvələrin inkişafı nəticəsində, hər şeydən əvvəl, sosial sahədə vəziyyətin yaxşılaşması vasitəsilə əhalinin rifahının yüksəldilməsi üçün obyektiv imkanlar yarandığına görə, dövlət özəl sahibkarlıq maraqları ilə bütövlükdə cəmiyyətin maraqları arasında kompromisin ən səmərəli formalarını axtarıb tapmağa çalışır.

Özəl şirkətlərin sahibləri və səhmdarları da, öz növbəsində, bunu əsas götürə bilərlər ki, onların sosial sferaya yatırdığı investisiyalar sosial-ictimai effekt yaratmaqla bərabər, həm də investorlar üçün konkret maddi mənfəəti təmin edə bilər.

Başqa sözlə, sərmayə qoyulmuş sosial investisiyaların “ictimai gəlirliliyi” anlayışı bu investisiyaların konkret fərdi investorlar üçün gəlirliliyini də nəzərdə tuta bilər.

Nümunə kimi, dövlətlə və müxtəlif qeyri-dövlət təsisatları ilə fondların qarşılıqlı əlaqəli fəaliyyəti haqqında danışmaq olar. Bu perspektivli fəaliyyət əsas etibarilə həm dövlətə məxsus olan, həm də özəl ali məktəblərdə elmi araşdırmaların hərtərəfli dəstəklənməsinə, onların təşkilati strukturunun möhkəmlədilməsinə yönəlmişdir.

Bu halda investorlar müasir sosial sferanın qarşılıqlı əlaqəli iki ən mühüm sahəsinə – elm və təhsil sahələrinə sərmayə qoyuluşundan sanballı mənfəət götürməyə ümid edə bilərlər.

Bu səbəbdən, sosial investisiyanın milli iqtisadiyyatda ikili rol oynaması haqqında danışmağa əsas var, çünki bu investisiya həm əhalinin bütün həyat şəraitinə təsirin çoxvektorlu xarakteri ilə, həm də bilavasitə sərmayədarlar üçün müsbət maliyyə nəticələrinə nail olmaq imkanları ilə fərqlənir. Sosial investisiyaların belə mühüm rolu sosial investisiya mexanizmi vasitəsilə təmin edilməlidir. Ümumi iqtisadi mexanizmin ayrılmaz tərkib hissəsi olan sosial investisiya mexanizmi bütövlükdə investisiya fəaliyyətinin və konkret sosial investisiyaların stimullaşdırılması, xüsusi halda milli iqtisadiyyat çərçivəsində potensial

investorlar üçün əlverişli mühit formalaşdırılması məqsədilə qarşılıqlı əlaqəli forma, metod və vasitələr kompleksini əhatə edir.

Müvafiq olaraq, konkret istiqamətlər üzrə sosial investisiyanın dəstəklənməsi və stimullaşdırılması formalarına inzibati-hüquqi, vergi və bank-maliyyə xarakterli vasitələr dəstini aid etmək olar. Məsələn, inzibati-hüquqi və vergi xarakterli vasitələrə aşağıdakılar aiddir:

- sosial investisiyaların həyata keçirilməsi üçün zəruri müqavilə-hüquqi bazasını rəsmiləşdirməklə hüquqi prosedurların həyata keçirilməsinin sürətləndirilməsi;
- sosial yönümlü investisiya layihələrinin iştirakçılarına dövlət hakimiyyəti və idarəetmə orqanları tərəfindən lazımlı hüquqi və maliyyə zəmanətləri verilməsi;
- sosial investisiyada iştirak edənlər üçün birbaşa subsidiyaların və müxtəlif güzəştlərin tətbiqi.

Bank-maliyyə xarakterli vasitələrə aşağıdakılar aiddir:

- kreditvermənin ümumi şərtlərinin tənzimlənməsi;
- sosial layihələrin reallaşdırılmasında iştirak edənlər üçün birbaşa güzəştli kreditlər verilməsi;
- faiz dərəcəsinin səviyyəsinə təsir göstərilməsi.

Belə mexanizmin strukturunda davamlı sosial investisiyanın qarantı kimi dövlətin və onun həyata keçirdiyi iqtisadi siyasətin rolunu xüsusi qeyd etməliyik. Dövlətin iqtisadi siyasətindən asılı olaraq, həm sosial sferaya sərmayə qoyuluşlarının sosial-ictimai səmərəsini, həm də investorların konkret maddi faydasını təmin etmək mümkündür.

Bununla əlaqədar, investisiya prosesinin inkişafının dövlət tərəfindən dəstəklənməsi son dərəcə zəruridir. Dissertasiya müəllifinin fikrincə, bu halda dövlətin investisiya siyasəti milli iqtisadiyyat çərçivəsində investisiya fəaliyyətinin ən mühüm inzibati-institusional resursu hesab edilməlidir. Belə siyasət ölkədə əlverişli investisiya mühiti yaradılmasına, həm milli, həm də xarici sərmayədarların özəl kapitalının ölkəyə cəlb edilməsinin stimullaşdırılmasına, həmçinin perspektivli layihələrə özəl və dövlət investisiyalarının yeni formalarını axtarıb tapmağa yönəldilməlidir.

### 5. Sosial investisiyalar üçün əlverişli mühit formalaşdıran amillər

İstər yerli, istərsə də xarici potensial investorlar üçün investisiya cəlbediciliyi konkret ölkədə formalaşan investisiya mühiti ilə təyin

edilir.

İnvestisiya mühitinin obyektiv əhəmiyyəti onunla bağlıdır ki, qloballaşma proseslərinin inkişaf etdiyi müasir dünyada istənilən milli iqtisadiyyata investisiyalar cəlb etmək üçün konkret iqtisadiyyatda başqa ölkələrlə müqayisədə rəqabət qabiliyyətli, investorlar üçün cəlbedici şərait yaradılmalıdır. Başqa sözlə desək, investisiya üçün (o cümlədən, sosial investisiya üçün) əlverişli mühit formalaşmalıdır. Bu halda xüsusi vurğulamaq lazımdır ki, belə şərtlər həm yerli, həm də xarici kapitalın cəlb edilməsi probleminə aiddir. Buna görə deyə bilərik ki, konkret ölkənin investisiya mühiti məhz belə şərtlərin məcmusudur.

Nəzərə almaq lazımdır ki, investisiya mühiti milli iqtisadiyyat çərçivəsində formalaşan ümumi işgüzar mühitin ayrılmaz tərkib hissəsidir. Ona görə də, məsələn, investisiya mühitinin yaxşılaşdırılması üçün təklif edilə biləcək tədbirlər təkcə iqtisadi münasibətlər sahəsi ilə məhdudlaşmır, onun arealı formalaşan ictimai münasibətlər sahəsini də əhatə edir.

Bunu əsas götürərək deyə bilərik ki, müasir şəraitdə bütün milli iqtisadiyyat miqyasında ümumi işgüzar mühitin təkmilləşdirilməsi, ilk növbədə, aşağıdakı tədbirləri əhatə edir:

- bütövlükdə sosial-iqtisadi inkişaf və xüsusən sosial inkişaf üşun cavabdeh olan bütün səviyyələrdə dövlət idarəçiliyinin strukturunun təkmilləşdirilməsi və onun səmərəsinin artırılması;

- inflyasiya sürətinin və səviyyəsinin, həmçinin iqtisadiyyatın üzərinə düşən ümumi vergi yükünün azaldılmasını nəzərdə tutan səmərəli makroiqtisadi siyasətin dəstəklənməsi;

- uzunmüddətli investisiya fəaliyyətinə istiqamətlənmiş özəl bizneslə, o çumlədən – sosial sfera və onunla əlaqəli sahələrdə işin səmərəli təşkili.

- investisiya fəallığını stimullaşdırmaq məqsədilə ümumdövlət, regional, həmçinin bələdiyyələr səviyyəsində vergi preferensiyaları və güzəştlərin tətbiqi;

- innovasiya fəaliyyətində iştirak edən kiçik və orta biznes müəssisələri üçün əlverişli “artım nöqtələri”nin yaradılması;

- regionların və ərazilərin iqtisadi resursları əsasında klasterlər sisteminin inkişafı və hərtərəfli dəstəklənməsi;

-potensial investorlar üçün konsaltinq sisteminin inkişafının

stimullaşdırılması.

Bu halda həm xarici, həm də yerli investorların cəlb edilməsi baxımından əlverişli əlavə amillər sırasına, məsələn, müəyyən ərazidə və bütövlükdə milli iqtisadiyyat çərçivəsində telekommunikasiya-nəqliyyat infrastrukturunun, o cümlədən müasir telekommunikasiya infrastrukturunun inkişaf səviyyəsini aid etmək olar.

Nəhayət, xarici investisiyaların cəlb edilməsi üçün daha bir mühüm amili - bütövlükdə və sahələr üzrə ixtisaslı və uçuz əmək resurslarının mövcudluğu amilini xüsusi qeyd etmək lazımdır. Bu, sosial sfera sahələrinə və bütövlükdə sosial mühitin yanaşı sahələrinə investisiya qoyuluşu perspektivlərinə onların münasibətlərinə də aiddir. Belə ki, müvafiq ixtisas xarakteristikalarına malik olan və inkişaf etmiş ölkələrlə müqayisədə nisbətən ucuz işçi qüvvəsinin mövcudluğu inkişaf etməkdə olan konkret dövlətin iqtisadiyyatının investisiya cəlbediciliyini artırır. İxtisaslı və nisbətən ucuz işçi qüvvəsinin mövcudluğu adi şəraitdə qlobal iqtisadi proseslərdə dövlətin mühüm rəqabət üstünlüyü olmaqla bərabər, həm də yaxın gələcəkdə - koronavirus epidemiyasının fəsadlarının aradan qaldırılması dövründə dirçəldilən iqtisadiyyata sərmayə yatıran potensial kapital sahibləri üçün həlledici amillərdən biri ola bilər.

Göstərilən amillərin fəallaşması sosial sfera sahələrinin həm dövlət, həm də özəl biznesin müxtəlif formaları üçün getdikcə daha cəlbedici investisiya obyektlərinə çevrilməsində mühüm rol oynayır.

Beləliklə, milli iqtisadiyyat çərçivəsində əlverişli işgüzar mühitin formalaşması və bu mühitin qorunub saxlanması davamlı və genişlənən investisiya fəaliyyətinin, o cümlədən sosial investisiyaların ən mühüm şərti, investisiya mühiti isə, öz növbəsində, milli iqtisadiyyatın ayrılmaz tərkib hissəsidir. Belə mühitin formalaşmasına və qorunub saxlanılmasına yönəldilmiş tədbirlər sistemi həm ümummilli səviyyədə, həm də regionlar və bələdiyyə qurumları səviyyəsində dövlətin tənzimləyici və dəstəkləyici rolu sayəsində təmin olunur.

**6. Azərbaycan Respublikasında sosial investisiyanın təkmilləşdi-rilməsi imkanları.**

Bütövlükdə Azərbaycanda ümumi işgüzar mühitin yaxşılaşması müşahidə olunur. Son illərdə Azərbaycan iqtisadiyyatına xarici kapital axını öz həcminə görə yerli investisiyalardan az deyil. Bu fakt

Azərbaycanın kifayət qədər müsbət beynəlxalq investisiya nüfuzunun göstəricisidir. Eyni zamanda, ölkəyə cəlb edilən investisiyaların daha da artırılması məqsədilə konkret sahələr və layihələr üzrə investorlar üçün əlavə cəlbedici təkliflər, həmçinin yuxarıda qeyd edildiyi kimi, ümummilli, regional və yerli səviyyələrdə güzəştlər çox səmərəli ola bilər.

Nəhayət, sosial sfera sahələrinin və sosial mühitin "yanaşı" sahələrinin keyfiyyətcə yeni fəaliyyətinə nail olmağa yönəldilmiş sosial investisiya fəaliyyətinin inkişafı həm də potensial investorlar üçün daha cəlbedici şərait yaradılmasına xidmət etməlidir.

Azərbaycan kimi ölkələrdə həm bütövlükdə fərdi sahibkarlığın, həm də kiçik və orta biznesin subyektlərinin sosial investisiyada daha fəal iştirakı zəruridir və prinsipcə mümkündür. Belə imkanlar həm biznes üçün ümumi vergi güzəştləri sisteminin, həm də kiçik sahibkarlığın maliyyə imkanlarının genişlənməsinə bank-kredit dəstəyinin xüsusi çevik formalarının tətbiqini təmin edə bilər. Bugünkü şəraitdə koronavirus epidemiyasına qarşı mübarizə perspektivinə yönəldilmiş belə tədbirlər kiçik və orta sahibkarlığa dəstək, bəzən də onu xilas etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən təcili tədbirlərlə obyektiv vəhdət təşkil edir.

Bundan başqa, sosial investisiyada dövlətin iştirakının saxlanılması bu və ya digər layihələrin fərdi investorlar üçün etibarlılığına zəmanət və həmin layihələrin ictimai əhəmiyyətinin indikatoru funksiyalarını yerinə yetirir.

Digər tərəfdən, büdcədən maliyyələşdirməni artırmağa imkan verməyən obyektiv məhdudiyyətlər şəraitində sosial investisiyanın həcmini artırmaq üçün özəl biznesin bu prosesdə daha fəal iştirakının stimullaşdırılması, o cümlədən, təhsil və səhiyyə sahələrində pullu xidmətlərin genişləndirilməsinə yol acir.

Lakin tədqiqatçı hesab edir ki, sosial sfera sahələrində ödənişli xidmətləri genişləndirmək imkanı yarandıqda prinsipial əhəmiyyətli iki şərtə hökmən riayət edilməlidir: birincisi, dövlət tərəfindən sosial zəmanətlər nəinki qorunub saxlanmalı, həm də onların əhatə dairəsi genişlənməlıdir; ikincisi, sosial sfera sahələrində əhaliyə ödənişsiz və ödənişli xidmətlərin nisbətinin sonuncuların xeyrinə dəyişməsi sosial dövlətin prinsiplərinə zidd olardı. Buna görə həmin nisbətin pisləşməməsi üçün daim sosial-iqtisadi monitorinq aparılmalıdır.

Sosial investisiyaların həyata keçirilməsində özəl biznesin iştirakına stimul yaradılmasında bank sektoru mühüm rol oynamalıdır. Bunun üçün milli səviyyədə tədbirlər sistemi həyata keçirilməli, o cümlədən bir sıra qanunverici və normativ aktlar qəbul edilməlidir.

Bütövlükdə sosial investisiyanın keyfiyyətinin artırılması və təkmilləşdirilməsi məsələlərinə kompleks şəkildə yanaşmaq lazımdır. Doktorantın fikrincə, Azərbaycan Respublikasının milli iqtisadiyyatı və iqtisadiyyatın 11 əsas sektoru üzrə Strateji Yol Xəritələrində və Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində göstərilmiş konkret hədəflərin və məsələlərin reallaşdırılması bütövlükdə bu imkanları genişləndirməlidir.

Xüsusi halda, Milli iqtisadiyyat üzrə strateji yol xəritəsində vurğulandığı kimi, dünya bazarlarında ümumi vəziyyət son dərəcə qeyri-sabit olaraq qalır. Aydındır ki, bu, xarici kapital sahiblərinin hansı regionlara, hansı ölkələrə üstünlük vermələrinə və çox vaxt ehtiyatlı davranmalarına təsir edir və bu təsir davam edəcək. Buna görə də, doktorantın fikrincə, istənilən halda ölkəmizin ərazisində sosial investisiyalarda xarici investorların iştirakı ciddi əsaslandırılmalı, dəqiq göstərilmiş sahələrə və ayrı-ayrı böyük layihələrə aid olmalıdır.

Məsələn, daha bir Strateji yol xəritəsində, konkret olaraq, Azərbaycan Respublikasında telekommunikasiyaların və informasiya texnologiyalarının inkişafı üzrə Strateji yol xəritəsində ölkəmizin regionda texnoloji cəhətdən qabaqcıl dövlət kimi lider mövqe tutması onun inkişafının əsas istiqamətlərindən biri kimi müəyyən edilir . Görünür, bu inkişaf iki istiqamət üzrə gedəcək:

- iqtisadiyyatda rəqəmsallaşmanın geniş miqyas alması və biznesin informasiya-texnoloji təchizatının yaxşılaşması;
- müasir informasiya texnologiyalarının əhalinin gündəlik həyatının bütün sahələrinə nüfuz etməsi.

Rəqəmsallaşma problemindən söz düşmüşkən, xüsusi vurğulamaq lazımdır ki, iqtisadiyyatın və gündəlik həyatın bütün sahələrinin rəqəmsallaşması əmək məhsuldarlığının artmasına iki istiqamətdə təsir göstərir:

- müxtəlif sahələrdə istehsal bazasının və idarəetmə mexaniz-minin, həmçinin rabitə vasitələrinin keyfiyyətcə təkmilləşdirilməsi bütövlükdə əməyin xarakterində və əmək prosesində təzahür edir;

- işçilərin özlərinin fiziki və peşəkar imkanları genişlənir.

Bu qədər genişmiqyaslı və sıçrayışlı məsələlərin həlli üçün investisiyanın miqyası da artmalıdır. Aydındır ki, telekommunikasiya və rabitə vasitələri sahəsində inkişaf etmiş ölkələrin üstünlüyü danılmazdır. Müvafiq olaraq, bu ölkələrdən olan investorlar belə üstünlüyü daha da möhkəmlətməyə və genişləndirməyə imkan verən layihələrə kapital qoymaqda maraqlıdırlar. Buna görə də, tədqiqatçının fikrincə, informasiya texnologiyaları sahəsində cəlbedici layihələrin əcnəbi investorlara verilməsi belə layihələrə xaricdən investisiya qoyuluşunun həcmini artıra bilər. Müvafiq surətdə, bu halda həm istehsal sahəsinin, həm də sosial sfera sahələrinin və onunla "yanaşı" sahələrin qabaqcıl texnologiyalarla təchiz edilməsi imkanları əhəmiyyətli dərəcədə genişlənə bilər.

Lakin bu halda sosial investisiyaların hərtərəfli təkmilləşdirilməsi üçün, hər şeydən əvvəl, yerli biznesin bu istiqamətdə daha da aktivləşməsinə nail olunmalıdır.

Yuxarıda vurğulandığı kimi, sosial investisiya proseslərində fərdi biznesin aktivləşməsi üçün bütövlükdə iqtisadi fəaliyyət şəraiti təkmilləşdirilməlidir. Bu prosesdə:

- bütövlükdə ölkə iqtisadiyyatı miqyasında, zəruri hallarda isə ayrı-ayrı sahələr və ərazilər çərçivəsində vergi sistemi təkmilləşdirilməli;
- iqtisadi fəaliyyət subyektlərinin bazara çıxışı ilə bağlı hər cür məhdudiyyətlər maksimum azaldılmalı;
- biznes subyektləri üçün bərabərhüquqlu rəqabət şəraiti təmin edilməlidir.

Bununla əlaqədar, Milli iqtisadiyyat üzrə Strateji yol xəritəsində iqtisadi fəaliyyət şəraitinin təkmilləşdirilməsi çərçivəsində göstərilmiş əsas məqamlardan birinə diqqət yetirmək lazımdır. Məsələn, dövlət sektorunda bilavasitə kommersiya fəaliyyətinin azaldılması mühüm tədbirlərdən biri hesab edilə bilər. Bu, bütövlükdə özəl biznes fəaliyyətinin, o cümlədən sosial layihələrə investisiya fəaliyyətinin əhatə dairəsini genişləndirməyə imkan verərdi.

Həmin layihələrdə dövlətin iştirakı fərdi investorlar üçün bir növ "mayak", bu və ya digər layihələrin etibarlılığının qarantı, onların ictimai əhəmiyyətinin indikatoru olmalıdır. Buna görə, ideal halda elə vəziyyətə nail olmaq lazımdır ki, dövlət investisiyalarının cəlb edildiyi sosial layihələrin reallaşdırılmasında potensial fərdi investorların iştirakı

müsabiqə proseduru əsasında həyata keçirilsin.

Dövlət sektoru ilə özəl sektorun tərəfdaşlığı imkanlarının tam həcmdə reallaşdırılması məqsədəuyğundur. Məsələn, milli səhiyyə sisteminin maliyyələşdirilməsi iri özəl tibbi müəssisələr tərəfindən tibbi xidmətlər göstərilməsi üçün dövlətlə həmin müəssisələr arasında bağlanan uzunmüddətli müqavilələr şəklində həm dövlət mülkiyyəti, həm də özəl mülkiyyət formalarının qarşılıqlı əlaqəsinə əsaslana bilər. Mahiyyət etibarilə sosial investisiya fəaliyyətinin hüquqi əsası olan belə müqavilələrin maliyyələşdirilməsi pay iştirakı və ya tərəfdaşlıq şəklində həyata keçirilə bilər.

Analoji sxem təhsil sahəsində, xüsusilə ixtisaslı ustalar və texniki kadrlar hazırlanması ilə məşğul olan özəl ümumtəhsil məktəbləri və kolleclər səviyyəsində də tətbiq edilə bilər. Belə sxemlərin reallaşdırılması, bir tərəfdən - sosial sfera sahələrinin əhaliyə təqdim etdiyi xidmətlərin həcminin artırılması və bu xidmətlərin çeşidinin genişlənməsi, digər tərəfdən - sosial investisiya mənbələrinin və onların imkanlarının genişlənməsi deməkdir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı dərc olunmuş əsərlərdə öz əksini tapmışdır:**


1.Quliyeva A.Ə. Müasir Azerbaycan iqtisadiyyatında investisiya aktivliyinin xüsusiy-yətləri. //Azərbaycan Dövlət İqtisad Universitetini Elmi Xəbərləri. İl: 4, Cild 4, Aprel-İyun 2016, səh. 159 -165.

2.Гулиева А.А. Значение социальных инвестиций для развития национальной экономики. //Философия хозяйства. Альманах Центра общественных наук и экономического факультета МГУ им. М.В.Ломоносова, 2017, № 2 (110), стр. 145-152.

3.Гулиева А.А. Инвестиционная активность в социальной сфере как фактор устойчивого роста. // Научно-практический журнал. Экономика и управление: проблемы, решения. 9, том 3 (81), 2018 сентябрь, стр.9-13.

4.Quliyeva A.Ə. İnvestisiya fəallığının genişləndirilməsi üçün əlverişli işgüzar mühitin formalaşması. //“AUDIT” elmi-praktiki jurnal. Bakı Biznes Universiteti, Cild 22, № 4, 2018, səh.100-108.

5.Гулиева А.А. Социально ориентированная государственная политика как важный фактор обеспечения национальной экономи-

ческой безопасности. // Международная научная конференция “Национальная экономическая безопасность: потенциал развития и вызовы цифровой экономики”: сборник тезисов / Под ред. А.А.Пороховского, С.В.Кайманакова. – М.: Экономический факультет МГУ им.М.В. Ломоносова, 2019, стр. 35-37.

6.Quliyeva A.Ə. Şosial investisiyalarin iqtisadi siyasətdə yeri və rolu. // Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri. İl: 6, Cild 6, Oktyabr-Derabr, 2018, səh.118-126.

7.Гулиева А.А. Стимулирование финансово-инвестиционной деятельности частного бизнеса в социальной сфере // “Воспроизводственный потенциал региона: проблемы количественных измерений его структурных элементов”. Материалы VII Международной научно-практической конференции (7-8 июня 2019 года), Баш ГУ, Уфа /Отв.ред. Янгиров А.В. – Уфа: РИЦ Баш ГУ, 2019. стр.76-81.

8.Quliyeva A.Ə. Sosial sferaya investisiyaların milli iqtisadi potensialın artımına təsiri. //Maliyyə & ucot. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. Aylıq nəzəri və elmi-praktiki jurnal. 2019, №6 (325), səh. 52-57.

9.Quliyeva A.Ə. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsində sosial investisiya fəallığı. //Azərbaycanın iqtisadi inkişaf strategiyası mövzusunda respublika elmi konfransının materialları. I-ci cild. Bakı-UNEC-24 dekabr 2019, səh.109-115.

10.Гулиева А.А. Инновационная модернизация, социальные факторы роста и совершенствование социального инвестирования. //Международная научная конференция “Россия в координатах ударных перемен: социум, экономика, техносфера”: Сборник тезисов выступлений / Под.ред. Ю.М.Осипова, Т.С.Сухиной. - М.: Экономический факультет МГУ имени М. В. Ломоносова, 2019,- стр.148-151.

11.Guliyeva A.A. New possibilities for effective policy in digital economy. //“Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda beynəlxalq konfransın materialları (13-14 fevral 2020-ci il). Bakı: UNEC - 2020, “Azərbaycan” nəşriyyatı, səh. 395-396.

12.Гулиева А.А. Роль и значение частного бизнеса в финансировании социальной сферы // “Экономика как объект междисцип-

линарных исследований”. Сборник материалов IV международного политэкономического конгресса (МПЭК-IV) Под общей редакцией С. Д. Бодрунова. М.: Культурная революция, 2020, стр. 415-423.

13. Гулиева А. А. Стимулирование приоритетных направлений социального инвестирования в Азербайджанской Республике // “Актуальные вопросы экономической теории: развитие и применение в практике российских преобразований”. Материалы IX Международной научно-практической конференции /под общ. ред. д-ра экон. наук, проф. И. В. Дегтяревой; Уфимск. гос. авиац. техн. ун-т. – Уфа: РИК УГАТУ, 2020. – стр. 89-96.

14.Guliyeva A.A. Social investing in providing sustainable growth in modern economy. // Economic and Social Development 55th International Scientific Conference on Economic and Social Development Development Book of Proceedings Vol. 2/4. 55th International Scientific Conference on Economic and Social Development was dedicated to Azerbaijan State University of Economics 90th anniversary. Baku, 18-19 June 2020, pp.210-217.

15. Гулиева А.А. Вопросы экономической безопасности в стратегических дорожных картах развития Азербайджанской Республики // Международная научная конференция “Обеспечение национальной экономической безопасности: новые вызовы и приоритеты”. Сборник тезисов докладов международной научной конференции / Под ред. А. А. Пороховского, С. В. Кайманакова. – М.: Экономический факультет МГУ имени М. В. Ломоносова, 2020, стр. 131-134.



Dissertasiyanın müdafiəsi “31” may 2021-ci il tarixdə saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “30” aprel 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2021.
Kağızın formatı: 60x84 $_{1/16}$. Sifariş 04/09.
Həcmi 1 ç.v. (57532 işarə). Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*